1_Layout 1 13.05.2024 18:48 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

DİN DAXİLİ QOŞUNLAR

# ƏSGƏR

№ 9 (673)

15 may 2024-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# ŞUŞA QƏHRƏMANLIQ, ZƏFƏR VƏ SÜLH RƏMZİDİR

Mayın 11-də Şuşanın Cıdır düzündə VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalının və "Şuşa – İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Dövlətimizin başçısı tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli ICESCO-nun Baş direktoru cənab əl-Malik.

Hörmətli qonaqlar, əziz dostlar.

Bildiyiniz kimi, Şuşa şəhəri İslam dünyasının mədəniyyət paytaxtı elan olunmuşdur. Bu qərara görə ICESCO-ya, onun rəhbərliyinə, ICESCO-ya üzv ölkələrə - qardaş ölkələrə öz təşəkkürümü bildirmək istəyirəm. Şuşa bu şərəfli ada layiq görülüb və biz bunu İslam dünyasının Azərbaycana növbəti dəstəyinin, hörmətinin əlaməti kimi qəbul edirik.

Birinci dəfə deyil ki, Azərbaycan şəhəri bu şərəfli ada layiq görülür. 2009-cu ildə Bakı, 2018-ci ildə isə Naxçıvan şəhəri də İslam dünyasının mədəniyyət paytaxtı elan edilmişdir. Bu dəfə isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa bu şərəfli adı daşıyacaq.

Biz İslam həmrəyliyi istiqamətində ardıcıl fəaliyyət göstəririk. Azərbaycan İslam dünyasının birləşməsi, İslam həmrəyliyinin gücləndirilməsi üçün böyük səylər göstərir.

Ölkəmizdə bir çox beynəlxalq tədbirlər, musiqi festivalları, mədəni tədbirlər keçirilir. Təbii ki, Şuşa şəhərinin İslam dünyasının mədəniyyət paytaxtı olması bizə əlavə imkan verəcək ki, öz mədəniyyətimizi həm müsəlman ölkələrinin ictimaiyyətinə, həm də dünya ictimaiyyətinə çatdıraq.

Şuşa Azərbaycanın bir çox dahi mədəniyyət xadimlərinin vətənidir. Şuşada doğulmuş, burada boya-başa çatmış görkəmli və dahi mədəniyyət xadimləri bizim qürur mənbəyimizdir. Şuşa nəinki Azərbaycanda, bütövlükdə



Qafqaz bölgəsində və daha böyük coğrafiyada tarixən mədəniyyət ocağı kimi tanınırdı. Şuşanın mədəniyyət xadimlərinin fəaliyyəti hər zaman böyük diqqət cəlb edirdi.

Biz 28 il Şuşasız yaşayırdıq. Həm şuşalılar, həm bütün Azərbaycan xalqı bu illəri mənəvi əzab illəri kimi öz yaddaşlarında saxlayırlar və saxlayacaqlar. Dünən Şuşa şəhərinin dirçəldilməsi istiqamətində növbəti addım atılmışdır, ilk sakinlər uzun fasilədən sonra öz doğma şəhərinə qayıdıb burada məskunlaşmışlar. Şuşanın tarixi simasının bərpası istiqamətində fəal işlər gedir. Şuşa, sözün əsl mənasında, dirçəlir. Şuşanın bir çox tarixi və dini abidələri işğal dövründə işğalçılar tərəfindən tamamilə dağıdılmışdır. Hazırda dörd məscid yenidən qurulub, digər məscidlərdə təmir-bərpa işləri aparılır.

Bu işğala baxmayaraq, Şuşa öz ruhunu - Azərbaycan ruhunu qoruyub saxlaya bildi. Biz Şuşa azad olunandan sonra Şuşaya qayıtdıqda bir daha hər birimiz bunu görmüşük və dəfələrlə görürük. Şuşaya gələn hər bir insan əyani şəkildə görür ki, burada Azərbaycan ruhu var. Şuşa işğal, əsarət dövründə əyilmədi və biz – Azərbaycan xalqının nümayəndələri Şuşaya qayıtmalı idik. Qan tökərək, şəhidlər verərək, - Allah bütün şəhidlərimizə rəhmət eləsin, - Şuşanın azad edilməsi, şəhər döyüşləri nəticəsində azad edilməsi tariximizin parlaq səhifəsidir.

Qeyd etdiyim kimi, Şuşa mədəniyyət ocağı kimi tanınsa da, hazırda, eyni zamanda, qəhrəmanlıq rəmzidir, zəfər rəmzidir və sülhün rəmzidir. Çünki məhz Şuşanın azad olunmasından sonra işğalçılar tam anladılar ki, müqavimət göstərmək onlara heç nə verməyəcək və beləliklə, bu gün biz Şuşanı tam haqlı olaraq sülhün rəmzi kimi qiymətləndirə bilərik.

Mən xarici qonaqları səmimiyyətlə salamlayıram. Builki "Xarıbülbül" festivalı bu hadisəyə - Şuşanın İslam dünyasının mədəniyyət paytaxtı elan olunmasına həsr edilib. Bu gün bir çox müsəlman ölkələrinin kollektivləri bizim üçün müqəddəs olan Cıdır düzündə öz




məharətlərini ifadə edəcəklər. Bu, birlik bayramı olacaq, bu, həmrəylik bayramı olacaq. Eyni zamanda, Azərbaycan xalqının əyilməz ruhunu nümayiş etdirən bu məkan həm işğala qədər, həm işğal dövründə, həm də işğala son qoyulandan sonra hər birimiz üçün doğma və əzizdir. Bizim qəhrəman əsgər-zabitlərimiz, bax, bu sıldırım qayalara dırmaşaraq yüngül silahlarla şəhəri düşməndən azad etmişlər.

Əminəm ki, bundan sonra Azərbaycan torpaqlarında daim sülh olacaq. Arzum budur, əminəm, bütün Azərbaycan xalqının arzusu budur ki, qoy, heç vaxt bu səma altında bir daha top səsləri eşidilməsin. Qoy, bundan sonra burada ancaq musiqi sədaları səslənsin. Sağ olun.

x x x

Sonra ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malik çıxış edib.

Çıxışlardan sonra açılış konserti keçirilib.

Konsertdə "Xarıbülbül"ün bütün iştirakçılarının yer aldığı açılış kompozisiyasının müşayiəti ilə 27 Qarabağ atından ibarət süvari dəstə ICESCO-ya üzv ölkələrin bayraqları ilə Cıdır düzünə daxil olub.

Qeyd edək ki, Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən ilin noyabrında bununla bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

Heydər Əliyev Fondunun və Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçiri-



lən festivalın proqramı ifaçıların və repertuarın zənginliyi, fərqli təqdimatlar ilə seçilir. Builki festivalın iştirakçıları arasında həm də ICESCO-ya üzv ölkələrdən ifaçılar və yaradıcı kollektivlər yer alıb. Möhtəşəm mədəniyyət hadisəsinə çevrilən "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında Azərbaycanla yanaşı, Birləşmiş Ərəb Əmirlikləri, İndoneziya, İran, Qazaxıstan, Qətər, Qvineya, Mərakeş, Özbəkistan, Türkiyə də təmsil olunub.

Xatırladaq ki, festival mayın 12-də Şuşada, 13-də isə Laçında davam edib.

**AZƏRTAC-ın materialları əsasında hazırlanıb.**

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ANADAN OLMASININ 101-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyində xalqımızın tarixində və taleyində əvəzsiz rolu olan, Azərbaycanı məhv olmaq təhlükəsindən qoruyan, müstəqil dövlətimizin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə Ulu Öndərin və ölkəmizin ərazi bütövlüyü, suverenliyi uğrunda şəhid olanların əziz xatirəsi bir dəqi-



qəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Ulu Öndərin dövlətçilik tariximizdəki yeri və mövqeyi ilə bağlı çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Əliyevşü-



naslıq şöbəsinin müdiri, professor Ədalət Qasımov qeyd edib ki, böyük bir imperiyanın tərkibində olsa da, Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinin elan edilməsi üçün real əsaslar, yeni suveren bir ölkə kimi qarşılaşa biləcəyi mühüm məsələlərin həlli üsulları hələ Ulu Öndər Heydər Əliyevin sovet hakimiyyəti illərində respublikamıza birinci rəhbərliyi dövründə formalaşdırılıb. Məhz onun Azərbaycana rəhbərlik etdiyi həmin illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı.

Ümummilli Lider Heydər Əliyevin mənalı həyatından və çoxşaxəli fəaliyyətindən ətraflı bəhs edən Ə.Qasımov bildirib ki, şərəfli ömür yolunu ölkəmizin tərəqqisinə və xalqımızın parlaq gələcəyinə həsr edən Ulu Öndər dövlətçiliyin ideoloji-siyasi əsaslarını yaratmaqla, xalqı əsl müstəqilliyə qovuşduraraq hafizələrdə əbədiyaşarlıq qazanıb.

Ölkəmizdə cinayətkarlıqla qətiyyətli mübarizəyə, ictimai asayişin qorunmasına Ulu Öndərin xüsusi önəm verdiyini vurğulayan daxili işlər nazirinin müavini, polis general-leytenantı İsmət Əliyev bildirib ki, bu gün ölkəmizdə hüquqi-normativ bazanın formalaşmasında, mühüm əhəmiyyətə malik qanunların qəbul edilməsində, dövlətçilik ənənələrinin möhkəmləndirilməsində və inkişafında, ölkəmizin hüquqi, demokratik və dünyəvi dövlət kimi imicinin yüksəldilməsində, eyni zamanda, respublika daxili işlər orqanlarının formalaşmasında, təkmilləşdirilməsində, ölkədə cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmini işinin yüksək səviyyədə təşkilində Ulu Öndərin əvəzsiz xidmətləri var.

O, Ümummilli Liderin 1994-cü ilin avqust ayında imzaladığı "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" Fərmanın bu sahədə fəaliyyətin təşkilati-hüquqi bazasının və gələcək uğurların möhkəm təməlini qoyduğunu diqqətə çatdırıb. Bildirilib ki, "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunların, "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında" və "Daxili işlər orqanlarında xidmət keçmə haqqında" əsasnamələrin qəbulu Ulu Öndərin daxili işlər orqanlarının fəaliyyətinə verdiyi böyük önəmin bariz nümunəsi idi.



2020-ci ildə başlayan və qələbəmizlə başa çatan Vətən müharibəsinin, ölkəmizin beynəlxalq miqyasda etibarlı tərəfdaş kimi qəbul olunmasının, bir sözlə, qazandığımız bütün uğurların təməlində Ulu Öndərin ideallarının dayandığını vurğulayan natiqlər bu dahi şəxsiyyətin xalqımızın tarixi ilə bağlı olan siyasi fəaliyyətinin gələcək nəsillər tərəfindən dərindən öyrəniləcəyinə, onun hər anının, hər səhifəsinin örnək, əsasını qoyduğu azərbaycançılıq ideologiyasının əbədiyaşar olacağına əminliklərini ifadə ediblər.

Daha sonra tədbir iştirakçıları Ulu Öndərin möhtəşəm fəaliyyətindən bəhs edən "Tarixin izi ilə - Ömrün zirvəsi Heydər Əliyev" sənədli filminə baxıblar.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 13.05.2024 19:04 Page 1



# XİDMƏTƏ YENİ QƏBUL EDİLMİŞ ÇAĞIRIŞÇILARIN ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB



Mayın 11-də Daxili Qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib.



Mərasimdə daxili qoşunlar komandanının 1-ci müavini – qərargah rəisi general-mayor Tofiq Hüseynov iştirak edib.

Tədbir Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Nümunəvi göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.



Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Tədbirdə çıxış edən hərbi hissə komandiri polkovnik Bəhruz Kazımov əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıb.

Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb. Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, bundan əlavə, Daxili Qoşunların möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb. Qeyd olunub ki, hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə, hər bir hərbi qulluqçu bu müqəddəs andın mənasını tam olaraq dərk etməlidir.

Təbrikdə həmçinin xalqımızın şanlı qələbəsi ilə başa çatan 44 günlük Vətən müharibəsində və antiterror tədbirlərində Daxili Qoşunların şəxsi heyətinin fədakarlıq göstərərək, şərəfli döyüş yolu keçdiyi bildirilib. Sıralarımıza daxil olan hər bir hərbi qulluqçunun Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacağına, dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurlar qazanacağına əminlik ifadə olunub.

Təntənəli gün münasibətilə çıxış edənlər əsgərləri səmimi qəlbdən təbrik edərək, onları cəsur və intizamlı olmaqla, hərbi bilikləri öyrənməyə, daim Vətənin müdafiəsinə hazır olmağa səsləyiblər. Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

# ULU ÖNDƏRİN ANADAN OLMASININ 101-ci İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AĞACƏKMƏ AKSİYASI KEÇİRİLİB

Daxili İşlər Nazirliyinin əməkdaşları Ulu Öndərin anadan olmasının 101-ci ildönümü ilə əlaqədar ağacəkmə aksiyası keçiriblər. Müstəqil Azərbaycanın memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 101-ci ildönümü çərçivəsində Daxili İşlər Nazirliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı nəticəsində paytaxtın Qaradağ rayonunun Müşfiqabad qəsəbəsində növbəti ağacəkmə aksiyası keçirilib. Tədbirdə hər iki qurumun rəhbər şəxsləri, polis əməkdaşları və nazirliyin hərbi qulluqçuları iştirak ediblər. Azərbaycan təbiətinin böyük hamisi Ulu Öndər Heydər Əliyevin əziz xatirəsinə həsr olunmuş tədbirdə yerli iqlimə uyğun olaraq minə yaxın Eldar şamı əkilib, ərazidə olan bitkilərə qulluq göstərilib, yaşıllıq zonasında təmizlik işləri aparılıb.




**DİN-in Mətbuat xidməti**

# ALİ HƏRBİ MƏKTƏBDƏ XARİCİ DÖVLƏTLƏRİN HƏRBİ ATTAŞELƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB

Aprelin 30-da Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbində Azərbaycan Respublikasında akkreditasiya olunmuş xarici dövlətlərin hərbi attaşeləri ilə görüş keçirilib. Görüşdə 18 ölkənin - Amerika Birləşmiş Ştatları, Rusiya Federasiyası, Çin, Türkiyə, İran, Koreya, Rumıniya, Belarus, Macarıstan, Çexiya, Polşa, İtaliya, Serbiya, Qazaxıstan, Gürcüstan, Səudiyyə Ərəbistanı, Ukrayna, Bolqarıstan respublikalarının hərbi attaşeləri və digər səlahiyyətli nümayəndələri iştirak ediblər. Ümumilikdə 23 nəfər xarici qonağın təmsil olunduğu görüşün keçirilməsində məqsəd DİN Daxili Qoşunlarının Ali Hərbi Məktəbi ilə yaxından tanışlıq olub.



Ali Hərbi Məktəbin rəisi general-mayor Elçin Məmmədov qonaqları səmimi salamlayaraq, bu görüşdən məmnunluq hissi duyduğunu bildirib. Daxili Qoşunların beynəlxalq hərbi əməkdaşlıq əlaqələrinin günü-gündən inkişaf etdiyini diqqətə çatdıran məktəb rəisi keçirilən görüşün buna bariz nümunə olduğunu söyləyib.

Görüşdə Daxili Qoşunların xidməti-döyüş fəaliyyəti, təlim-tədris sistemi, maddi-texniki təchizatı və beynəlxalq hərbi əməkdaşlıq əlaqələri barədə brifinq verilib.

Rumıniya Respublikasının hərbi attaşesi, heyətin rəhbəri polkovnik Viktor Konon səmimi və qonaqpərvər qəbula görə heyət adından təşəkkürünü bildirib.

Heyət rəhbəri polkovnik V.Konon şərəf kitabını imzaladıqdan sonra xatirə şəkli çəkdirilib.

Son olaraq nümayəndə heyəti Ali Hərbi Məktəbin tədris korpusu və kursant yataqxanasına baş çəkib. Kursantların keyfiyyətli hərbi təhsil almaları üçün Ali Hərbi Məktəbdə mövcud olan şərait qonaqlarda xoş təəssürat yaradıb.

**Beynəlxalq hərbi əməkdaşlıq şöbəsi**

# İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİL (OMBUDSMAN) APARATININ NÜMAYƏNDƏLƏRİ HƏRBİ HİSSƏNİN AYRI YERLƏŞƏN XÜSUSİ TƏYİNATLI DƏSTƏSİNƏ BAXIŞ KEÇİRİBLƏR

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının əməkdaşları Fəzail Həsənov, Murad Babayev və Vəli Quliyev ötən ay 16077 saylı hərbi hissənin ayrı yerləşən xüsusi təyinatlı dəstəsində olublar.



İlk olaraq, ayrı yerləşən xüsusi təyinatlı dəstənin ərazisi ilə tanış olan qurumun əməkdaşları daha sonra bölmələrə, yeməkxanaya, tibb məntəqəsinə, ərzaq anbarına və əsgər mağazasına ümumi baxış keçiriblər. Əsasən dəstənin şəxsi heyətinə əməkdaşlar tərəfindən insan hüquqları, eləcə də hərbi qulluqçuların hüquqları, Ombudsmanın fəaliyyət istiqamətləri barədə məlumat verilib, mövcud hərbi qanunvericilik və hərbi nizamnamələr mövzusunda söhbətlər aparılıb.




Sonda əsgər yeməkxanasında nahar süfrəsinə əyləşən qonaqlar hərbi qulluqçularla səmimi ortamın yaradılmasına öz töhfələrini veriblər.

Qeyd edək ki, müvafiq tədbirlər planına əsasən, ilin sonunadək Daxili Qoşunların müxtəlif hərbi hissələrində Ombudsman Aparatının əməkdaşlarının şəxsi heyətlə görüşlər keçirmələri nəzərdə tutulur.

**Mətbuat xidməti**

# HƏRBİ İNTİZAMIN VƏ TƏRBİYƏ İŞİNİN VƏZİYYƏTİNƏ GÖRƏ FƏRQLƏNƏN BÖLMƏ

25033 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri də xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstə komandirinin vəzifəsini icra edən mayor Ərşad Nəsibov funksional vəzifələrindən irəli gələn bütün tapşırıqların icrasına məsuliyyətlə yanaşır, regionda ictimai qaydanın və təhlükəsizliyin qorunub saxlanılmasında əlindən gələni əsirgəmir.




Tabeliyində olan bölmələrin ümumi fəaliyyətini təhlil edən komandir dəstənin vəzifələri barədə danışarkən bildirdi ki, şəxsi heyətlə keçirilən bütün təlimlər, məşğələlər, eləcə də aparılan tərbiyə işi yalnız bir məqsədə - hərbi qulluqçuların verilmiş tapşırıqların icrasına hər zaman hazır olmalarına xidmət edir.

Ümumiyyətlə, xüsusi əməliyyatlara cəlb olunan bölmələrin yüksək döyüş hazırlığına malik olmasında möhkəm hərbi intizamın və kollektivdə qarşılıqlı sağlam münasibətlərin mühüm rol oynadığını nəzərimizə çatdıran mayor Ə.Nəsibov bu işdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini kapitan Röyal Əzizovun da əməyini yüksək qiymətləndirdi.

Kapitan R.Əzizov dəstədə keçirilən söhbət, mühazirə, viktorina, disput, mövzu axşamı və digər çoxşaxəli tərbiyə işi tədbirlərinin şəxsi heyətin hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsinə, hərbi intizamının möhkəmləndirilməsinə böyük təkan verdiyini diqqətə çatdırdı: "Qarşıya qoyulan bütün tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə hər zaman hazır olmaq şəxsi heyətin əsas vəzifələrindən biridir. Keçirilən təlim və məşğələlərin, eləcə də aparılan tərbiyə işinin əsas məqsədini də məhz bu amillər təşkil edir".

Dəstə komandirinin tərbiyə işləri üzrə müavini nümunəvi xidmətilə fərqlənən, öz vəzifələrinə məsuliyyətlə yanaşan hərbi qulluqçuların adlarını da qeyd etməyi unutmadı. Belə ki, bölmə komandirlərindən baş leytenant Səban Məmmədov, yarımqrup komandirlərindən gizir Vüsal Qasımov, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından baş çavuş Bayram Babayev, baş əsgər Rüfət Məmmədov, əsgər Sahil Abdullayev üzərilərinə düşən vəzifələri ləyaqətlə icra edirlər.

**kapitan Nigar Ağayeva**

# PEŞƏKAR VƏ MƏSULİYYƏTLİ İSTEHKAMÇILAR

99713 saylı hərbi hissənin hərbi qulluqçuları hər zaman qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində peşəkarlıq nümayiş etdirirlər. Hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında rolu olan bölmələrdən biri də xüsusi təyinatlı dəstənin istehkam yarımqrupudur.

Xidmət müddətində bir çox tapşırığı uğurla yerinə yetirən xüsusi təyinatlı dəstənin istehkam yarımqrupunun komandiri-baş istehkamçısı baş çavuş Eldəniz Məmmədov söylədi ki, yarımqrupun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsidir.



Baş çavuş E.Məmmədov yarımqrupun nümunəvi hərbi qulluqçularından çavuşlar Şıxəli Məmmədovun, Rübail Quliyevin və Sərxan Abbaslının adlarını qeyd edərək, onların verilən tapşırıqların icrasına hər zaman məsuliyyətlə yanaşdıqlarını bildirdi.

Hərbi hissənin mühəndis və kimya xidmətinin rəisi mayor Tural Qurbanov istehkam yarımqrupunun fəaliyyətini müsbət qiymətləndirərək, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan şəxsi heyətin bundan sonra da qarşıya qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hazır olduğunu qeyd etdi.



**kapitan Şahin Cəfərzadə**

3_Layout 1 13.05.2024 19:07 Page 1



*Şəhidlərimiz*

# VƏTƏNƏ SƏDAQƏTLİ OĞUL VƏ ATASININ LAYİQLİ DAVAMÇISI OLDU...

Azərbaycan şəhidlik və qazilik imtahanında canları, qanları ilə tarix yazmış qeyrətli oğulların Vətənidir. Onlar müharibənin od-alovundan keçiblər, döyüş meydanında sinələrini düşmən gülləleri və mərmilərinə sipər ediblər. Şanlı qələbəmiz igid döyüşçülərin hünər və fədakarlıq nümunələri sayəsində qazanılıb. "Dəmir yumruq" amili torpaqlarımızın işğalına son qoyub, erməni qəsbkarlığına, separatizminə və şovinizminə amansız zərbələr vurub.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları döyüş sınaqlarından alnıaçıq çıxıblar. 2023-cü il sentyabrın 19-dan 20-dək Qarabağ bölgəsində erməni ordusunun qalıqlarına və silahlı separatçılara qarşı keçirilmiş lokal xarakterli antiterror tədbirləri zamanı Daxili Qoşunların şəxsi heyəti həvalə edilən vəzifələri mətinliklə yerinə yetirib. 17072 saylı hərbi hissənin 12 nəfər hərbi qulluqçusu həmin vaxt şəhidlik zirvəsinə ucalıb. Onların siyahısında çavuş Əliyev Zahir Sədi oğlunun da adı var. Şəhidin ailəsinə baş çəkdim, eləcə də silahdaşları ilə danışdım və sənədli mənbələrdən məlumatlar topladım.

Abşeron rayonunun Ceyranbatan qəsəbəsində yaşayan Zahirin qardaşları Zamiq Əliyev, Vilayət Əlizadə, həyat yoldaşı Aynur Mürsəlova və övladları Aysu Əliyeva, Nilay Əliyeva ilə görüşərək həmsöhbət oldum. Onların bildirdiklərinə görə, Zahir 1987-ci il yanvarın 4-də Lerik rayonunun Soru kəndində doğulub. Sədi Əliyev və Sumaq Əliyevanın 7 övladı dünyaya gəlib, o, ailənin ilki idi, iki qardaşı və dörd bacısı var.

Doğmaları söylədilər ki, Zahirin atasının əmiləri Kamal Zeyniyev və Böyükağa Zeyniyev 1941-1945-ci illərdə alman faşistlərinə qarşı müharibədə iştirak edərək ön cəbhədə itkin düşüblər. Atası Sədi Əliyev hərbçi olub, sovet ordusu sıralarında Qazaxıstan, Rusiya Federasiyası və Azərbaycanda xidmət keçib, "gizir" hərbi rütbəsində ehtiyata buraxılıb. Orduda xidmət etdikdən sonra doğma kəndindəki orta məktəbdə çağırışaqədərki hazırlıq fənni üzrə müəllim işləyib, gənc nəslin təlim-tərbiyəsində öz zəhmətini əsirgəməyib.

Lerik rayonunun Soru kəndində yerləşən şəhid Təhsin Cəfərov adına tam orta məktəbdə Zahir 11 il təhsil alıb. Orta məktəbdə riyaziyyat, çağırışaqədərki hazırlıq və fiziki tərbiyə fənlərinə daha çox maraq göstərib. Məktəbli olduğu vaxtdan atasının peşəsinə rəğbət bəsləyib, onun məsləyini davam etdirməyi düşünüb.

Ailə üzvləri danışdılar ki, Zahir ailəcanlı, mehriban, xeyirxah, zəhmətkeş, sözü və əməlində dürüst, dostluqda sadiq, həyatsevər, zarafatcıl olub. Valideynlərinə, qardaşlarına və bacılarına qayğı ilə yanaşıb, həmişə onların köməyinə yetib. Orta məktəbdən sonra təhsilini davam etdirməyərək işləyib ki, ailənin dolanışığına öz töhfəsini versin.

2004-cü ilin avqust ayının 1-də ağır xəstəlik səbəbindən anasının vəfat etməsi Zahiri dərindən sarsıtsa da, səbr və iradəsini toparlayıb.



2005-ci ilin iyul ayında Zahir müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 25032 saylı hərbi hissəsində hərbi and içib. 99713 saylı hərbi hissədə xidmətini davam etdirərək Vətən qarşısında əsgəri borcunu vicdanla yerinə yetirib. 2007-ci ilin yanvar ayında hərbi xidmətdən tərxis olunub.

Hərbi xidmətdən qayıtdıqdan sonra yenə də müxtəlif işlərdə çalışaraq ailənin maddi rifahı üçün zəhmətə qatlaşıb. Ancaq bununla yanaşı, hərbçi olmaq məramını gerçəkləşdirmək fikrindən vaz keçməyib. Atası ilə bu məsələdə məsləhətləşib və onun dəstəyi Zahiri ruhlandırıb.

2008-ci ilin noyabr ayının 27-də Zahir xalası qızı Aynur xanımla ailə qurub. Həyatda ailə xoşbəxtliyinin qədrini bilib.

2013-cü ilin may ayında Zahirin Daxili Qoşunların komandanlığına müraciəti müsbət cavablandırılaraq o, müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcı-sanitarı, xüsusi vasitələrin tətbiqi bölməsinin radiostansiya rəisi-yazarı, atıcı-radiotelefonçusu, post-patrul xidməti bölməsinin xüsusi vasitələrin tətbiqi qrupunun atıcısı vəzifələrində xidmət edib. Funksional vəzifələrini və qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirərək komandanlığın etimadını doğruldub. Hərbi xidməti dövründə komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb. Silahdaşlarının hörmətini qazanıb.

17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin komandirinin tərbiyə işləri üzrə müavini mayor Muxtar Qafarov, post-patrul xidməti bölməsinin komandirinin müavini kapitan Eltun Orucov, xüsusi vasitələrin tətbiqi qrupunun komandiri baş leytenant Tərlan İsayev, xüsusi vasitələrin tətbiqi dəstəsinin atıcı-yazarı baş əsgər Nazir Tağıyev, xüsusi vasitələrin tətbiqi qrupunun baş atıcısı baş əsgər Pərvin Lətifov və qazi, ehtiyatda olan gizir Səxavət Zeynalov Zahirin xidmət və döyüş yoluna, fərdi cəhətlərinə yaxından bələd olan silahdaşlarıdır. Onlar məlumat verdilər ki, Zahir dəstənin təcrübəli, peşəkar, nüfuzlu, şəxsi heyəti dərindən tanıyan hərbi qulluqçularından biri olub. Hərbçi atasının yolunun davamçısı olmasını həmişə qürurla vurğulayıb. Peşə məsləyini uca tutub, geniş dünyagörüşü, nizam-intizamı, səliqə-sahmanı ilə fərqlənib. Təyin edildiyi vəzifələrin öhdəsindən bacarıqla gəlib, təhkim olunan silah və xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətlərinə mükəmməlcəsinə yiyələnib. Təlim və məşğələlərdə öz döyüş hazırlığını artırmağa çalışıb. Göstərici taktiki təlimlər zamanı məharət nümayiş etdirib.

Bəzi kütləvi tədbirlərdə ictimai qaydanın və təhlükəsizliyin qorunması, həmçinin koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin edilməsi üzrə xidmətlərə cəlb olunub. Verilən tapşırıqları məsuliyyətlə yerinə yetirib.

44 günlük Vətən müharibəsi dövründə Zahir Gəncə şəhəri və Göygöl rayonunda komendant postlarında ayıq-sayıq xidmət aparıb. Həmin günlərdə dəstənin şəxsi heyəti döyüş tapşırıqlarının icrasına hazır vəziyyətdə olub.

Vətən müharibəsi zamanı azğın düşmən Gəncəni də şiddətli raket atəşinə məruz qoyub, nəticədə dağıntılar altında qalan şəhər sakinləri tələfata uğrayıblar və yaralanıblar. Bu gərgin məqamlarda o və silahdaşları əhalinin təhlükəsizliyi keşiyində qətiyyətlə dayanıblar, zərərçəkmiş şəxslərə yardım göstərilib. Raket zərbələri endirilərkən hərbi qulluqçularımızın ailələri də təhlükə ilə üz-üzə qalıblar.

2020-ci il dekabrın 19-da atasının vəfat etməsi Zahirin həyatının daha bir böyük ağrı-acısı idi. Həmin gündən qardaşları və bacıları ona valideyn əvəzi nəzəri ilə baxıblar.

Qələbəmizlə başa çatan Vətən müharibəsindən sonra, ayrı-ayrı tarixlərdə Zahir işğaldan azad edilmiş Kəlbəcər, Zəngilan və Laçın rayonlarına təhlükəsizlik tədbirlərinin təmini məqsədilə qısamüddətli ezamiyyətə gedib. Qarşıya qoyulan xüsusi tapşırıqların icrasında heç bir nöqsana yol verməyib.

Daxili işlər nazirinin 29 iyun 2022-ci il tarixli müvafiq əmri ilə çavuş Z.Əliyev 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif olunub.

Antiterror tədbirlərinin iştirakçıları olan silahdaşlarının sözlərinə görə, 2023-cü il sentyabrın 19-dan 20-nə keçən gecə polkovnik-leytenant Rəşad Hüseynovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsinin hərbi qulluqçuları döyüş tapşırığının icrasına başlayıblar. Belə ki, Laçın rayonunun Nağdalı kəndindən Kəlbəcər rayonunun Vəngli kəndi (hazırda bu kənd Ağdərə rayonuna daxildir) istiqamətində avtomobillərlə hərəkət zamanı öncədən müəyyən edilən hüdudlara çatmayan şəxsi heyət erməni hərbçilərinin ilk hücumuna məruz qalıb, lakin işğalçıların atəş nöqtələri susdurulub, bir neçə nəfər döyüşçümüz yaralanıb. Döyüş tapşırığının icrası davam etdirilərkən Vəngli kəndinə qısa məsafə qaldıqda hərbi qulluqçularımız düşmən pusqusuna düşüblər. Yolun kənarlarından onlara müxtəlif çaplı silahlarla atəş açılıb. Döyüşçülərimiz yerindəcə çevik mövqelənərək düşmənə qarşı cəsurluqla vuruşublar. İtki verən ermənilər geri çəkiliblər. Bu döyüşdə Zahir ağır yaralanaraq şəhadətə yüksəlib. Dəstə komandiri və bəzi döyüşçü yoldaşları da şəhid olublar.



1 saylı Gəncə regional "Asan xidmət" mərkəzi tərəfindən verilən 6 oktyabr 2023-cü il tarixli ölüm haqqında şəhadətnamədə Zahirin 20 sentyabr 2023-cü ildə Kəlbəcər rayonunda hərbi əməliyyat nəticəsində odlu silahla və digər adi silah növləri ilə törədilmiş zədələnmələr səbəbindən şəhid olduğu faktı öz əksini tapıb.

Şəhid 2023-cü il sentyabrın 21-də Lerik rayonunun Soru kəndinin qəbiristanlığında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 7 noyabr 2023-cü il tarixli müvafiq sərəncamları ilə çavuş Z.Əliyev ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib.

Dövlət başçısının böyük diqqət və qayğısının təzahürü olaraq, müvafiq sərəncamla Abşeron rayonunun Yeni yaşayış kompleksində şəhidin ailəsinə ikiotaqlı mənzil verilib.

Soru kəndi üzrə şəhidlərin ümumi siyahısında 7 nəfərin adı qeydə alınıb. Kənddə onların xatirəsinə abidə-bulaq kompleksi yaradılıb, oradakı orta məktəbdə isə fotostend hazırlanıb. Rayonun Əliabad kəndinə gedən yolun qırağında quraşdırılan şəhidlərin plakatlarında Zahirin də şəkli var. Ceyranbatan qəsəbəsində də şəkli əks olunan plakat quraşdırılıb.

Cəsur döyüşçünün qohumları Elvin Səfərov şəhid, Pərvin Səfərov isə qazidir. Zahir atası ilə vaxtilə birgə xidmət etmiş Rasim Vəlizadənin oğlu, həmyerlisi Rəşadla yaxın silahdaş olub, o da antiterror tədbirləri zamanı şəhadət şərbətini içib.



Zahirin qızları Aysu və Nilay məktəblidirlər, sevgi və fərəh dolu atalı günlərin xoş xatirələri yaddaşlarından silinməyəcək. Atalarının nəsihətləri və arzuları onların həyat yoluna işıq salacaq.

2023-cü il dekabrın 21-də Xankəndidə keçirilən, fəxarətlə izlədiyimiz məlum futbol oyununun stadiondakı tamaşaçıları arasında olan şəhidin qardaşı və qızları unudulmaz təəssüratlarla geri dönüblər. Qızları həmin gün möhtərəm Prezidentimiz İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva ilə xatirə şəkli çəkdiriblər.

Vətənə sədaqətli oğul kimi ömür yaşamış hərbi qulluqçumuzun adı daim ehtiramla anılacaqdır.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# ŞƏHİDİMİZ ELSEVƏR PİRİYEVİN ƏZİZ XATİRƏSİ EHTİRAMLA ANILIB

Vətən torpağı uğrunda canlarını qurban verərək şəhidlik zirvəsinə ucalmış hərbi qulluqçularımızın xatirəsi xalqımız tərəfindən həmişə uca tutulur. Onların adları ehtiramla anılır, ailə üzvlərinə dərin rəğbət və hörmət nümayiş etdirilir. Şəhidlərin həyatı və şücaət, mərdlik, qəhrəmanlıq nümunələri ilə zəngin olan xidməti-döyüş fəaliyyəti gənclərə örnək göstərilir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin şəhid ailələrinə daim göstərdiyi diqqət və qayğı göz önündədir. Şəhid ailələrinin sosial-məişət problemlərinin aradan qaldırılması, ehtiyaclarının qarşılanması istiqamətində respublikamızda həyata keçirilən tədbirlər təqdirəlayiqdir.

Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər hər zaman diqqət mərkəzində saxlanılır.

16077 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Elxan Babayevin rəhbərliyi ilə xüsusi təyinatlı dəstənin bir qrup şəxsi heyətinin Daxili Qoşunların şəhid hərbi qulluqçusu çavuş Piriyev Elsevər Mahir oğlunun Ağcabədi rayonunun Arasbar kəndində yaşayan ailəsinə baş çəkməsi də göstərilən



qayğının təzahürüdür. Öncə hərbi qulluqçularımız tərəfindən şəhidin Arasbar kənd qəbiristanlığındakı məzarı ziyarət olunub. Şəhadətə ucalmış xüsusi təyinatlının xatirəsi anılaraq məzarına gül dəstələri qoyulub.

Qeyd edək ki, çavuş E.Piriyev 1995-ci il iyunun 12-də Ağcabədi rayonunun Arasbar kəndində anadan olub. Mahir Piriyev və Yeganə Piriyevanın ortancıl övladı olan Elsevərin Nərminə, Aytac adlı bacıları var. Əməksevər, doğma torpağa bağlı ailədə böyüyərək tərbiyə almış Elsevər el-oba arasında böyüklərə hörməti, xeyirxahlığı, cəsarəti ilə seçilib.

Elsevər şəhid Cavanşir Həsənov adına Arasbar kənd ümumi orta məktəbi və şəhid Akif Sultanov adına Kürdlər kənd tam orta məktəbində təhsil alıb. 2013-cü ilin iyul ayında Elsevər müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 25031 saylı hərbi hissəsində xidmət keçib. Nümunəvi xidmətilə dövlətimiz qarşısında öz borcunu vicdanla yerinə yetirdiyi nəzərə alınaraq, müddətdən artıq həqiqi hərbi xidmətə keçirilməsi barədə müraciəti müsbət cavablandırılıb. Bununla əlaqədar valideynləri ilə məsləhətləşib, onların xeyir-duasını alıb. Beləliklə, 2015-ci ilin yanvar ayından etibarən Elsevər öz arzusu ilə Daxili Qoşunların sıralarında hərbi xidmətini davam etdirib. 17072 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrupunun atıcısı, sonra isə orada xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun yarımqrupunun heyət nəfəri vəzifələrinə təyin edilərək komandanlığın etimadını doğruldub. Hərbi xidməti dövründə yüksək döyüş və mənəvi-psixoloji hazırlığı, intizamı, icraçılığı, təlimlərdə əzmkarlığı, qarşıya çıxan çətinlikləri dəf etmək bacarığı, səliqə-sahmanı ilə fərqlənib. Komandirləri tərəfindən dəfələrlə mükafatlandırılıb. O, 44 günlük Vətən müharibəsində şərəfli döyüş yolu keçib. 2020-ci il oktyabrın 15-də Hadruta yaxın yüksəkliklərdən birinə hücum zamanı Elsevər ağır yaralanaraq şəhidlik zirvəsinə ucalıb.



Azərbaycan Respublikası Prezidentinin 15, 24, 25 dekabr 2020-ci il, 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə çavuş E.Piriyev ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Şəhidin ailəsi ilə görüşən hərbi qulluqçularımız Elsevərin atası M.Piriyev və anası Y.Piriyeva ilə söhbət ediblər. Söhbət zamanı onlar Elsevərin ömür yolu barədə xatirələrini bölüşüblər.

Şəhidin atası qeyd edib ki, Elsevər çox mehriban və ailəcanlı bir övlad idi. O, daim ailəsinə qayğı göstərib. M.Piriyev həmçinin bildirib ki, Arasbar kəndinin orta məktəbinin girişində Elsevərin əziz xatirəsinin əbədiləşdirilməsi üçün şəhidimizin adına abidə-bulaq kompleksi ucaldılıb.

Şəhidin anası Y.Piriyeva oğlu barədə fəxarətlə və qürurla danışıb. Elsevərin yadigar qoyduğu övladları Uğur və Ümidin layiqli tərbiyəsi, qayğı ilə böyüməsi Y.Piriyevanın başlıca məqsədidir. O, diqqətə çatdırıb ki, övlad itirmək sözlə ifadə olunmayan ağrı-acıdır. Ailəsi üçün yeganə təskinlik Elsevərin torpaqlarımızın azad edilməsi naminə şəhidlik məqamına ucalmasıdır.

Polkovnik-leytenant E.Babayev Elsevərin və digər şəhidlərimizin fədakarlığı sayəsində ölkəmizin Vətən müharibəsində qazandığı hərbi zəfərin əhəmiyyətini qeyd edərək, ordumuzun son antiterror tədbirləri nəticəsində öz qanı bahasına Qarabağ bölgəsində respublikamızın suverenliyini tam bərpa etməsi barədə danışıb. O, hərbi qulluqçularımızın şərəfli döyüş yolu barədə maraqlı məqamlara toxunub.

Onu da qeyd edim ki, müharibədən ötən müddət ərzində istər Daxili İşlər Nazirliyinin rəhbərliyi, istərsə də Daxili Qoşunların komandanlığı tərəfindən onlara göstərilən diqqət və qayğıdan razı qaldığını söyləyən Piriyevlər ailəsi buna görə dərin minnətdarlığını ifadə edib.

**kapitan Şahin Cəfərzadə**

4_Layout 1 13.05.2024 19:08 Page 1



# KOMENDANT BÖLÜYÜ HƏRBİ HİSSƏNİN BÖLMƏLƏRİ ARASINDA BİRİNCİLİK QAZANIB

İstənilən hava şəraitində xidmətin ayıq-sayıq aparılması hərbi qulluqçudan möhkəm iradə, dözümlülük və böyük məsuliyyət tələb edir. Sadalanan bu və digər müsbət keyfiyyətləri 25033 saylı hərbi hissənin komendant bölüyünün hərbi qulluqçularının hər birində görmək olar. Keçən ilin xidməti-döyüş fəaliyyətinin və hərbi intizamın yekunlarına görə birinci yer tutan komendant bölüyü hərbi hissənin fəal bölmələrindəndir.




Döyüş bayrağının, hərbi obyektlərin etibarlı mühafizəsi və müdafiəsi bölüyün fəaliyyətinin əsasını təşkil edir. Bu baxımdan qarşıya qoyulmuş tapşırıqların uğurla yerinə yetirilməsi, xidmətin düzgün təşkil edilməsi olduqca vacibdir.




Bölük komandiri kapitan Mənsur Nağdan-Əliyev söylədi ki, xidmət Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin tələblərinə əsasən təşkil edilir.

Komendant bölüyündə xidmətin çətin, lakin şərəfli və məsuliyyətli olduğunu diqqətə çatdıran bölük komandiri döyüş xidmətinə seçilən hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlıqlarının nəzərə alındığını bildirdi. Məlumdur ki, məsuliyyətli, eyni zamanda mühüm vəzifəni yerinə yetirmək üçün bölükdə xidmət edən hər bir hərbi qulluqçunun fiziki baxımdan sağlam, nizam-intizamının qənaətbəxş və atəş hazırlığının yüksək səviyyədə olması vacib amillərdir. Bu gün xidmətə cəlb olunan şəxsi heyətdə sadalanan keyfiyyətlərin olduğunu deyən kapitan M.Nağdan-Əliyev hərbi qulluqçularla keçirilən məşğələlərin onların bilik və bacarıqlarının artırılmasına təkan verdiyini dedi. Həmçinin onu da əlavə etdi ki, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, hərbi qulluqçular arasında yoldaşlıq münasibətlərinin qorunub saxlanılması məqsədilə tərbiyə işi tədbirləri keyfiyyətlə həyata keçirilir. O, bölük komandirinin müavini leytenant Cahid Verdiyevin və tərbiyə işləri üzrə müavini leytenant Şöhrət İsmayılovun əməyini xüsusilə vurğuladı, onların öz üzərilərində daim işlədiklərini, verilən tapşırıqları bacarıqla və vaxtında yerinə yetirdiklərini söylədi.

Bölük komandiri qabaqcıl və döyüş xidmətində xüsusilə fərqlənən hərbi qulluqçulardan baş leytenant Orxan Əzizov, baş çavuş Şəmşir Qasımlı, kiçik çavuş Sənan Sahibov, əsgərlər Kənan Abdullayev, İlkin Talıblı və Rəhim Almazovun adlarını çəkərək, onların yoldaşlarına nümunə olduqlarını qeyd etdi.

**kapitan Nigar Ağayeva**

# MİNNƏTDARLIQ

"Əsgər" qəzetinin ünvanına Daxili Qoşunların Hərbi Qospitalında müayinə və müalicə olunan hərbi qulluqçular, həmçinin onların ailə üzvləri tərəfindən çoxlu sayda minnətdarlıq məktubu daxil olur. Biz də redaksiya heyəti olaraq məktubların qəzet səhifəsində işıqlandırılmasını təmin edirik.

Bu dəfə isə kəskin boyun və baş ağrıları ilə özüm qospitala qəbul olundum. Müayinə zamanı boyun fəqərələrinin osteoxondrozu, fəqərələrarası disk protruziyalarının olduğu aşkarlandı. Qospitalın tibb personalının böyük zəhməti hesabına qısa müddət ərzində sağalaraq yenidən xidmət yerinə qayıtdım.

Buna görə də Azərbaycanın əməkdar həkimi, 12576 saylı hərbi hissənin komandiri tibb xidməti polkovniki Şəmsəddin Heydərov başda olmaqla qospitalın komandanlığına, psixonevrologiya şöbəsinin rəisi tibb xidməti mayoru Şükufə Məmmədovaya, fizioterapiya və tibbi bərpa şöbəsinin rəisi tibb xidməti mayoru Rəna İlyasovaya, uro-nefrologiya şöbəsinin rəisi tibb xidməti leytenantı Kamran Baxşıyevə, o cümlədən orta tibb personalına (baş tibb bacıları baş gizir Səbinə Hüseynovaya, gizirlər Səadət Nəbiyevaya, Könül Məşədibəyovaya, tibb bacıları baş çavuşlar Aidə Əliyevaya, Mədinə Bəkərovaya, Sevda Əsgərliyə, Aytac Mustafazadəyə, Günel Hüseynovaya, tibb qardaşları gizir İntiqam Məmmədova, baş çavuşlar Canpolad Həsənliyə və Elburus Hacılıya) dərin minnətdarlığımı bildirir, bütün kollektivə bundan sonrakı xidməti fəaliyyətində uğurlar arzulayıram.

**mayor Anar Əhmədov**

*NÜMUNƏVİ XİDMƏT*

# MƏSULİYYƏTLİ XƏTT NƏZARƏTÇİSİ

67987 saylı hərbi hissənin təminat bölüyünün rabitə taqımının rabitə manqasının xətt nəzarətçisi əsgər Elmin İsmayılzadə 2002-ci ilin iyul ayının 10-da Göyçay rayonunun Çayarxı kəndində anadan olub. 2008-2019-cu illərdə Bakı şəhərinin Binəqədi rayonunda yerləşən 99 nömrəli tam orta məktəbdə təhsil alıb. 2019-2023-cü illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Bədən tərbiyəsi və idman fakültəsində təhsilini davam etdirib. Akademiyanı müvəffəqiyyətlə bitirdikdən sonra 2023-cü ilin iyul ayından müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların sıralarına qəbul olunub.

Funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşan hərbi qulluqçumuz ona verilən tapşırıqları vaxtında, tam məsuliyyətlə yerinə yetirir. O, rabitə vasitələrinin döyüşə hər zaman hazır vəziyyətdə saxlanılmasına, texniki istismarı üzrə tədbirlərin təşkili və keçirilməsinə cavabdehlik daşıyır.



Təminat bölüyünün komandiri kapitan Anar Nəsibov da əsgər E.İsmayılzadəni intizamlı, bacarıqlı, üzərində daim çalışan, keçirilən məşğələlərdə fəallıq göstərən hərbi qulluqçu kimi xarakterizə etdi. Söylədi ki, o, savadı, davranışları, qarşıya qoyulan tapşırıqları dəqiqliklə yerinə yetirməsi ilə yoldaşlarına nümunədir.

**kapitan Xədicə Hacızadə**

# ŞƏXSİ HEYƏTİN NORMAYA UYĞUN KEYFİYYƏTLİ QİDALANMASI DİQQƏT MƏRKƏZİNDƏDİR

Daxili Qoşunlar komandanlığının əsas diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlıqlarının qorunması və səhhətlərinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.



16077 saylı hərbi hissənin ərzaq xidməti rəisinin vəzifələrini icra edən kapitan Faiq Məcidov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi. Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlıqlarının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.




Kapitan F.Məcidov şəxsi heyətin qidalanması və gündəlik qida rasionu barədə də məlumat verdi. Bildirdi ki, hərbi qulluqçuların qidalanmasında əsasən milli təamlara üstünlük verilir. O, şəxsi heyətin qidalanmasının həftəlik bölgü cədvəlinə əsasən təşkilini də bildirdi. Bunun üçün yeməkxanada məsul vəzifəli şəxslər tərəfindən qidalanma rejimi və ərzağın bölüşdürülməsi tərtibatı işlənib hazırlanır.

Kapitan F.Məcidov görülən işlərdə yeməkxana rəisi baş çavuş Rəhman Ağamirzəyevin zəhmətini xüsusilə vurğuladı. Onun qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiyini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün öz əməyini əsirgəmədiyini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında aşpazlardan Qənirə Dadaşovanın, Vəsilə Quliyevanın və Leyla Haqverdiyevanın fəaliyyətini də müsbət xarakterizə etdi.

**kapitan Şahin Cəfərzadə**

# DÖYÜŞ XİDMƏTİNDƏ FƏRQLƏNƏN ƏSGƏR

Əsgər Təbriz Babazadə 99713 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən, nizam-intizamlı və bacarıqlı hərbi qulluqçularındandır. Öz vətənpərvərliyi ilə seçilən hərbi qulluqçu komandirlərinin, əsgər yoldaşlarının hörmət və etimadını qazanıb.

O, 2004-cü ilin oktyabr ayının 1-də Tərtər rayonunun Sarıcalı kəndində anadan olub. 2010-2019-cu illərdə doğma kəndində yerləşən 1 nömrəli tam orta məktəbdə, 2019-2023-cü illərdə isə Mingəçevir Turizm Kollecində reklam işi ixtisası üzrə təhsil alıb.

2023-cü ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. 25031 saylı hərbi hissədən sonra xidmətini 99713 saylı hərbi hissənin komendant bölüyündə davam etdirir. Hərbi biliklərə xüsusilə maraq göstərir. Daim öz üzərində çalışır, çünki yaxşı başa düşür ki, hərbi qulluqçu yalnız bu yolla qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını uğurla yerinə yetirə, eləcə də qəflətən yarana biləcək maneələri aradan qaldıra bilər. Bunun nəticəsidir ki, əsgər T.Babazadə istənilən çətinliyin öhdəsindən lazımınca gəlir.



Sıralarımızda onun kimi məsuliyyətli və bacarıqlı hərbi qulluqçular çoxdur.

**kapitan Şahin Cəfərzadə**

# CAMAŞIRXANANIN FƏALİYYƏTİ QƏNAƏTBƏXŞDİR

25032 saylı hərbi hissənin camaşırxanası bütün növ əmlakların yuyulması, qurudulması, o cümlədən çeşidlənməsi üçün lazım olan müasir texniki avadanlıqlarla təchiz olunub.





Qeyd etmək lazımdır ki, qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirilməsində işçilərin də əməyi böyükdür. Şəxsi heyətin həftə ərzində istifadə etdiyi əmlaklarının yuyulması məhz onlar tərəfindən həyata keçirilir. Hərbi hissənin təminat bölüyünün təminat taqımının hamam-camaşırxana kombinatının rəisi baş çavuş Farid Xəlilov tabeliyində olan işçi xanımların fəaliyyətindən söz açdı, onların işgüzar və mənəvi keyfiyyətlərini sadaladı. O bildirdi ki, camaşırxana işçiləri Gülnarə Eyvazova, Aygün Hüseynova və Gülnar Abbasova öz işlərini məsuliyyətlə görür, hər bir əsgərə ana qayğısıyla yanaşırlar.

Hər həftə hamam tədbirlərindən sonra cümə və şənbə günləri əsgərlərin çirkli əmlakları yuyulur. Hər bir əmlak ütülənib qurudulduqdan sonra çeşidlənərək, aidiyyəti üzrə bölmələrə təhvil verilir. Əmlaklar istifadə təyinatına və rənginə görə ayrıca paltaryuyan qurğularda yuyulur ki, bu da sanitar-gigiyenik qaydaların gözlənilməsi deməkdir. Gigiyenik qaydalara ciddi əməl olunması həm də hissə komandanlığının nəzarətdə saxladığı və işçilərin qarşısında qoyduğu ən mühüm tələbdir.

İşçilər üzərilərinə düşən vəzifələri, habelə verilmiş tapşırıqları müvafiq tələblər əsasında yerinə yetirirlər.

**kapitan Xədicə Hacızadə**

## HƏRBİ XƏBƏRLƏR

*- YENİLİKLƏR -*

### KF-21 döyüş təyyarəsinin "Meteor" raketi ilə atış sınağı həyata keçirilib



Koreya Respublikasının "Korea Aerospace Industries" (KAI) şirkəti tərəfindən inkişaf etdirilən KF-21 "Boramae" döyüş təyyarəsinin "hava-hava" tipli "Meteor" raketi ilə atış sınağı həyata keçirilib. "Poliqon" "Yonhap" xəbər agentliyinə istinadən bildirir ki, sınaq zamanı əvvəlcə təyyarəyə quraşdırılmış AESA radarı ilə 87 km məsafədən hədəf olaraq təyin edilən pilotsuz uçuş aparatı (PUA) aşkarlanıb.

Daha sonra "Meteor" raketi PUA-nın 1 metr yaxınlığından keçə biləcək şəkildə atılıb və sınaq uğurla tamamlanıb. Bununla da KF-21 "Boramae" "Eurofighter", "Rafale" və "Gripen" qırıcılarından sonra "Meteor" raketi ilə atış sınağı həyata keçirmiş 4-cü döyüş təyyarəsi olub.

## Allah rəhmət eləsin

99713 saylı hərbi hissənin komandanlığı mayor Elmir Rzayevə **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

25033 saylı hərbi hissənin komandanlığı gizir Cavidan Adıgözəlova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, R.Hüseynov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
**Əlaqə telefonları: 560-22-63**

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**